*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 9, 2025*
*Səh. 276-284*

https://doi.org/10.62837/2025.9.276

**KÖNÜL MİKAYILOVA**
ARTİ-nin Təhsilin nəzəriyyəsi və tarixi
şöbəsinin böyük elmi işçisi, PhD
E-mail: k.mikayilova@arti.edu.az
https://orcid.org/0000-0003-2817-5593
**NOVAL AL-ABBASİ**
Filologiya üzrə fəlsəfə doktoru,
BDU-nun Dünya ədəbiyyatı
kafedrasının baş müəllimi
E-mail: noval.alabbasi@mail.ru
https://orcid.org/0000-0002-6452-4765

# AZƏRBAYCANDA QİYMƏTLƏNDİRMƏ MEXANİZMLƏRİ: TƏLİM NAİLİYYƏTLƏRİNİN VƏ ŞAGİRD NAİLİYYƏTLƏRİNİN MÜQAYİSƏLİ TƏHLİLİ

**Xülasə:**

Azərbaycanda ümumi təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində aparılan islahatlar fonunda qiymətləndirmə mexanizmlərinin təkmilləşdirilməsi təhsil siyasətinin prioritet istiqamətlərindən birinə çevrilmişdir. Bu çərçivədə “təlim nailiyyətləri” və “şagird nailiyyətləri” anlayışları ətrafında aparılan elmi və praktik müzakirələr qiymətləndirmənin məzmun və məqsəd baxımından fərqli yanaşmalar tələb etdiyini ortaya qoyur.

Tədqiqatın məqsədi təlim nailiyyətlərinin və şagird nailiyyətlərinin qiymətləndirilməsinin elmi-pedaqoji əsaslarını, mexanizmlərini müəyyənləşdirmək, qiymətləndmənin imkan və yollarını, tətbiqi texnologiyalarını irəli sürmək və əsaslandırmaqdır.

Tədqiqatın töhfəsi təlim nailiyyətlərinin və şagird nailiyyətlərinin qiymətləndirilməsinin məqsədi və mahiyyətinə aydınlıq gətirmək, təlim nailiyyətləri ilə şagird nailiyyətləri arasındakı fərqlərin sistemli təhlilini aparmaq, Azərbaycan təhsil sistemində qiymətləndirmə siyasətinin daha effektiv qurulmasına, şəffaf qərarların qəbuluna və təhsil keyfiyyətinin yüksəldilməsinə töhfə vermək məqsədini daşıyır.

**Açar sözlər:** *qiymətləndirmə mexanizmləri, tədris effektivliyi, təhsil siyasəti, tədris keyfiyyəti, müəllim və şagird fəaliyyəti*

**Ключевые слова:** *механизмы оценки, эффективность обучения, образовательная политика, качество обучения, успеваемость учителей и учеников*

**Keywords:** *assessment mechanisms, teaching effectiveness, educational policy, teaching quality, teacher and student performance*

**Giriş**

Azərbaycan təhsilində qiymətləndirmə sisteminə münasibət bildirən və bu sahədə tövsiyələr verən beynəlxalq və regional təşkilatlar bir neçə əsas kateqoriyada qruplaşdırıla bilər. Onlar təkcə qiymətləndirmə modellərinə deyil, həm də tədrisin keyfiyyətinə, öyrənmə nəticələrinə və siyasət formalaşdırmaya töhfə verirlər.

Formativ qiymətləndirmə beynəlxalq təcrübədə, xüsusilə OECD ölkələrində, şagirdlərin irəliləyişinin davamlı izlənməsi, dərhal geribildirim verilməsi və onların özlərini qiymətləndirmə bacarıqlarının inkişaf etdirilməsi ilə xarakterizə olunur. Azərbaycanda bu yanaşma ümumi təhsil kurikulumlarında nəzərdə tutulsa da, müəllimlərin bu sahədəki hazırlıq səviyyəsi qeyri-bərabərdir və praktikada geniş tətbiqi ilə bağlı problemlər qalmaqdadır. Summativ qiymətləndirmə isə OECD ölkələrində təlim mərhələsinin sonunda tətbiq olunur və bəzən formativ məqsədlərlə də istifadə edilir. Azərbaycanda isə məktəbdaxili summativ qiymətləndirmə (MDSQ) və ümumrespublika səviyyəsində keçirilən qiymətləndirmələr əsas yer tutur. Lakin çox zaman bu qiymətləndirmələr yalnız nəticəyə yönəlir və öyrənməni dəstəkləyici funksiyası zəif qalır [5].

UNESCO (Birləşmiş Millətlər Təhsil, Elm və Mədəniyyət Təşkilatı), UNICEF (BMT-nin Uşaq Fondu), Avropa İttifaqı (EU), EQAVET (Peşə Təhsili və Təlimində Avropa Keyfiyyət Təminatı Şəbəkəsi), British Council, Dünya Bankı (The World Bank), CEPS (Sloveniya Təhsil Siyasəti Araşdırmaları Mərkəzi) və ETF (Avropa Təlim Fondu) kimi təşkilatlar Azərbaycan təhsilində qiymətləndirməni öyrənməni stimullaşdıran vasitə, məktəbdaxili və milli səviyyədə təlimin inkişafı üçün əks əlaqə mənbəyi, eləcə də siyasət və strategiyaların əsaslandırılması üçün məlumat bazası kimi dəstəkləyən bir sıra layihələr həyata keçiriblər.

Aparılan elmi-pedaqoji araşdırmalara əsasən şagird nailiyyətlərinin, təlim nailiyyətlərinin, təlim nəticələrinin qiymətləndirmə mezanizmləri ayrı-ayrılıqda və qarşılıqlı əlaqədə nəzərdən keçirilərək, təhsil iştirakçılarının, müəllim, şagird və valideynlərin informasiya təminatını gücləndirir. Şagirdin öyrənmə prosesindəki irəliləyişini izləmək, müəllimin təlim məqsədlərini əldə etməsini müəyyənləşdirmək və təhsildə gələcək inkişaf yollarını planlaşdırmaq üçün düzgün seçilmiş qiymətləndirmə mexanizmlərindən asılıdır.

**Təlim nailiyyətlərinin qiymətləndirilməsi**

Təlim nailiyyətlərinin qiymətləndirilməsi, mahiyyət etibarilə yalnız şagird nəticələrinin yox, bütövlükdə tədris prosesinin keyfiyyətinin diaqnostikasıdır. Bu anlayış müasir pedaqogikanın konstruktivist və şagirdyönümlü yanaşmalarına uyğun olaraq formalaşma və təhsilin keyfiyyətinə sistemli yanaşma tələb edir. Təlim nailiyyətlərinin qiymətləndirilməsi pedaqoji prosesdə diaqnostikanı yerinə yetirərək bir neçə əsas funksiyanı idarə edir:

• *Müəllim fəaliyyətinin formativ təhlili və strategiyalarının effektivliyi.* Məqsədyönlü bu qiymətləndirmə müəllimin tətbiqi metodu və strategiyalarının nədən effektiv olduğunu və onların hansı amillərlə bağlılığını üzə çıxarır.

• *Məktəbdaxili keyfiyyətin inkişaf ehtiyaclarının verilməsi.* Müəllimlərin peşəkar nailiyyətlərinə dair təlim qərarlarının əsaslandırılmasına xidmət edir. Bu, həm də müəllimlərin inkişaf istiqamətlərini dəstəkləyir və onların təkmilləşməsi üçün ehtiyacların sistemləşdirilməsinə şərait yaradır.

• *Təhsil siyasətinin formalaşdırılmasına elmi əsasların təmin edilməsi* strategiyalarının planlaşdırılması. Qiymətləndirmə nəticəsində regional və milli inkişafa dair təhsil strategiyalarının planlaşdırılmasında etibarlı və obyektiv məlumat bazası rolunu oynayır.

Təlim nailiyyətlərinin qiymətləndirilməsi zamanı *məqsəd* tətbiq edilən təlim metodlarının effektivliyini ölçmək, müəllimlərin istifadə etdiyi strategiyaların nəticələrini təhlil etmək, eyni zamanda ümumi təhsil mühiti və material resurslarının təlim prosesinə təsirini müəyyənləşdirməkdir.

Təlim nailiyyətlərinin qiymətləndirilməsi üzrə vəzifələr dedikdə, əldə edilən bilik, bacarıq və vərdişlərin qiymətləndirilməsi ilə bağlı həyata keçirilən məqsədyönlü fəaliyyətlər başa düşülür. *Təlim nailiyyətlərinin qiymətləndirilməsi üzrə vəzifələr aşağıdakı kimi müəyyənləşə bilər:*

-bəhs və bölmələr üzrə mövzular necə tədris olunub?;
-məktəblilərin mənimsəmə səviyyəsi necədir?;
-hansı bölmələr təkrarən tədris olunmalıdır?

*Təlim nailiyyətlərinin qiymətləndirilməsi zaman qiymətləndirmə obyekti aşağıdakılardır:*

- dərslərin müşahidəsi;
- müəllim hesabatları;
- müntəzəm təlim nəticələri üzrə təhlillər (imtahanlar, testlər, sorğular);
- məktəbdaxili qiymətləndirmə nəticələrinin müqayisəli təhlili.

*Təlim nailiyyətlərinin qiymətləndirilməsi zamanı əsas meyarlar aşağıdakı kimi ola bilər:*

- dərsin məqsədlərinə nail olunma səviyyəsi;
- istifadə olunan təlim metodlarının effektivliyi;
- müəllim-şagird əlaqəsinin səviyyəsi;
- təlim zamanı yaranan öyrənmə mühiti və resurslardan istifadə.

Qeyd olunanlar təlim nailiyyətlərinin qiymətləndirilməsi strukturunu təsvir edir və təlim nailiyyətlərinin qiymətləndirilməsi çoxşaxəli və kompleks bir proses olduğu üçün məqsədyönlü və sistemli şəkildə həyata keçirilməlidir.

Bu prosesin tətbiqində aşağıdakı çətinliklər nəzərə alınmalıdır:

1. *Pedaqoji aspektdən çətinliklər*

- Qiymətləndirmə və dərslər arasında uyğunsuzluq. Bəzi alətlər tətbiq etmək təlim metodlarına və dərslərin məqsədlərinə uyğun olmur.

- Formativ və summativ qiymətləndirmə arasında balansın qorunmaması. Müəllimlər formativ qiymətləndirmənin mahiyyətini dərk etmədən summativ qiymətləndirməyə üstünlük verə bilər.

- Qiymətləndirmə meyarlarının aydınlaşdırılmaması. Təlimə uyğun olmayan və ya ehtiyac üçün başa düşməsi çətin olan meyarlar qiymətləndirmənin obyektivliyinə mane olur.

2. *Metodoloji aspektdən çətinliklər*

- Qiymətləndirmənin düzgün seçilməməsi. Müşahidə, sorğu, test, refleksiya kimi vasitələr düzgün qurulma zamanı reallığı əks etdirməyə bilər.

- Qiymətləndirmə məlumatlarının təhlilində çətinlik. Toplanan məlumatların sistemli təhlili və interpretasiyası üçün müəllimlərin yetərincə metodoloji hazırlığı olmur.

*3. Texniki və resurslarla bağlı çətinliklər*

- Təlim resurslarının və infrastrukturun qeyri-kafi olması. Qiymətləndirmə zamanı müasir texnologiyadan və material resurslarından istifadədə çətinliklər yaranır.

- Rəqəmsal alətlərdən istifadə də düzəlişlər. Rəqəmsal platformalar vasitəsilə ölçmə zamanı müəllimlər texniki vasitələri idarə edə bilər.

*4. İnsan resursları və prosesə hazırlıq səviyyəsi üzrə çətinliklər*

- Müəllimlərin tədqiqat sahəsində təlim ehtiyaclarının ödənilməməsi. Eləcə də bütün müəllimlər formativ və summativ qiymətləndirmənin prinsiplərini dərindən bilməyə və tətbiq etməyə hazır olmaya bilər.

- Şagirdlərin özünüqiymətləndirmə və refleksiya bacarıqlarının zəif olması. Bu bacarıqlar təlim nailiyyətlərinin obyektiv qiymətləndirilməsində mühüm rol oynasa da, bu bacarıqlar zəif inkişaf etdirilə bilər.

*5. İdarəetmə və təşkilati fəaliyyətlə bağlı çətinliklər*

- Məktəbdaxili qiymətləndirmə nəticələrinin idarə edilməsində sistemsizlik mövcud ola bilər. Qiymətləndirmənin düzgün toplanmaması, sənədləşdirilməməsi və istifadə olunmaması.

Təhsil siyasəti ilə məktəb praktikası arasında uyğunsuzluğun olması. Təhsil siyasətində planlaşdırılmış idarəetmə yanaşmaları məktəb səviyyəsində tətbiq edilərkən təhrif oluna bilər [3].

Təlim nailiyyətlərinin qiymətləndirilməsi sistemli şəkildə dəyişdirilmədikdə və yenilənmədikdə, bu proses müəllimin fəaliyyətinin təkmilləşməsinə deyil, sadəcə formallığa çevrilə bilər. Bu tədqiqat sahəsində **metodik dəstək**, **müəllim hazırlığı**, **texniki təchizat,** idarə və **idarəetmə** mühüm rol oynayır.

**Şagird nailiyyətlərinin qiymətləndirilməsi**

Şagird nailiyyətlərinin qiymətləndirilməsi müasir təhsil fəlsəfəsində yalnız biliklərin yoxlanması ilə məhdudlaşmır, həm də şagirdlərin idrak, sosial və emosional inkişafını müəyyənləşdirir. Qiymətləndirmənin bu forması üçün öyrənmə trayektoriyasının fərdiliyini qiymətləndirmək hədəflənir. Burada əsas vurğu yalnız "nə öyrəndi?" sualına deyil, həm də "öyrəndiyini necə tətbiq edir?", "nə qədər inkişaf edib?", "öyrənməyə necə yanaşır?" kimi suallara yönəlir [1, 6].

Şagird nailiyyətinin qiymətləndirilməsində araşdırmanın funksiyaları xüsusi olaraq qeyd oluna bilər:

- *Motivasiyaedici funksiyalar* – öyrənənin öz nailiyyətlərini və çatışmazlıqlarını tanıması, təkmilləşmə ehtiyaclarını dərk etməsi;
- *Reflektiv funksiya* – öyrənənin öz təlim fəaliyyətini təhlil etməsi və qiymətləndirməsi;
- *Fərdiləşdirmə funksiyası* – fərdi idarəetmə planlarının və strategiyalarının qurulması üçün baza rolunu oynaması.

*Şagird nailiyyətlərinin qiymətləndirilməsi zamanı məqsəd* şagirdlərin bilik və bacarıqları hansı səviyyədə mənimsədiyini müəyyənləşdirmək, onları özlərini ifadə etmə və sosial funksiyalarını, davamiyyət və fəallıq göstəricilərini əsaslandırmaqdır.

Məqsəddən irəli gələrək şagird nailiyyətlərinin qiymətləndirilməsi üzrə *vəzifələr* aşağıdakı kimi müəyyənləşə bilər:

- yaddaşa əsaslanan deklorativ biliklər üzrə tərifləri, terminləri, məlumatları mənimsəmə bacarığı;
- prosedural biliklər əsasında aldığı informasiyaları təhlil etmə, tətbiq etmə bacarığı;
- kontekstual biliklər əsasında tədqiqatçılıq, yaradıcılıq bacarığı.

*Qiymətləndirmə obyekti:*

- fərdi qiymətləndirmə kartları və portfoliolar;
- şagirdlərlə müsahibə və refleksiya formaları;
- müntəzəm diaqnostik testlər;
- rəy və müşahidə protokolları.

*Şagird nailiyyətlərinin qiymətləndirilməsi zamanı əsas meyarlar aşağıdakı kimi müəyyənləşə bilər:*

- kurikulumda tutulan bilik və bacarıqların mənimsənilmə səviyyəsi;
- tənqidi düşünmə və problem həll etmə səviyyəsi;
- təhsil və bacarıqları;
- şəxsi inkişaf göstəriciləri.

Sadalanan məqsəd, vəzifə, obyekt, meyar və vasitələr şagird nailiyyətlərinin sistemli və kompleks şəkildə qiymətləndirilməsinə imkan yaradır.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 9, 2025*
*Səh. 276-284*

Şagird nailiyyətlərinin qiymətləndirilməsi prosesində müasir yanaşmaların tətbiqi tədrisə fərdi, dinamik və kompleks yanaşmanı tələb etsə də, bu prosesdə bir sıra çətinliklər meydana çıxır. Bu aşağıdakı aspektlərdə təqdim olunur:

1. *Pedaqoji aspektdən çətinliklər*

- Fərdi yanaşmanın olmaması;
- Şagirdin özünüqiymətləndirmə və refleksiya bacarıqlarının zəifliyi;
- Sosial-emosionallıqla bağlı idarələrin ölçülməsində subyektivlik. Şagirdin davranışı, münasibət və emosional inkişaf səviyyəsini obyektiv meyarlarla ölçməkdə çətin ola bilər.

2. *Metodoloji aspektdən çətinliklər*

- Qiymətləndirmə vasitələrinin düzgün seçilməməsi. Test, portfolio, layihə və digər vasitələr hər zaman konkret təhsilin inkişaf səviyyəsinə və təlim məqsədlərinə uyğun olmaya bilər.
- Meyarların qeyri-dəqiqliyi və ya başa düşülməməsi. Qiymətləndirmə meyarları aydın və ölçülə bilən subyektlər, nəticədə təhlili qeyri-dəqiq olur.
- Rubrikaların hazırlanmasında yüksək səviyyəli meyarların və səviyyələrin dəqiq müəyyənləşdirilməməsi. Keyfiyyət meyarlarının və səviyyələrini aydın şəkildə müəyyənləşdirməsi müəllimlər üçün müəyyən çətinliklər yaradır.

*3. Təşkilati və vaxtla bağlı çətinliklər*

- Qiymətləndirmənin vaxt aparan olması. Fərdiləşdirilmiş dizayn, portfolioların və təqdimatların qiymətləndirilməsində çox vaxt tələb olunur.
- Sinifdə tələbələrin çoxluğu. Şagirdlərin sayının çox olması müəllimə fərdi yanaşmanı və davamlı müşahidəni tətbiq etməyə mane ola bilər.
- Diaqnostik və monitorinq sistemlərinin zəif inkişafı. Şagirdin inkişafı trayektoriyasını izləmək üçün davamlı izləmə və təhlil sistemlərinin zəif olması.

*4. Təlim və idarəetmə resurslarının təmiri*

- Müəllimlərin peşəka inkişafının təmin olunmaması. Müasir texnologiya metodlarının tətbiqi üçün təlimlər və dəstək mexanizmləri müəllimlərə yetərli olmaması.
- Valideyn və məktəb arasında əlaqəlilik. Valideynlər və məktəblə bağlı yalnız summativ nəticələrə (qiymətlərə) önəm vermək prosesə mane ola bilər.
- Rəqəmsal alətlərin məhdudlaşdırılması və istifadəsində müəyyən çətinliklər. Elektron portfolio sistemləri və ya interaktiv analiz vasitələrinin düzgün idarə edilməməsi.

*5. Mədəni və psixoloji çətinliklər.*

- Şagirdlər arasında motivasiyanın zəifliyi. Bəzi yerlərdə özünüqiymətləndirmə və layihə kimi üsullar motivasiyaedici olsa da, başqaları üçün qeyri-cəlbedici ola bilir.

Qiymətləndirmə nəticələri psixoloji gərginliyə səbəb ola bilər. Bəzi dəyişikliklər şagirdlərdə psixoloji gərginliyə və ya valideynlər tərəfindən təzyiqə səbəb ola bilər [2, 4].

Şagird nailiyyətlərinin qiymətləndirilməsi yalnız təlimin deyil, həm də şagirdlərin şəxsiyyət kimi inkişaf etdirilməsi ilə bağlı izlənməsi və dəstəklənməsi üçün vacibdir. Lakin bu prosesin uğurla davam etməsi üçün metodiki istifadənin gücləndirilməsi, müəllim hazırlığının təmin olunması, rəqəmsal və texniki vasitələrin artırılması, idarə və idarəetmə ilə düzgün ünsiyyət mühüm rol oynayır.

**Nəticə və müzakirə**

Aparılan araşdırmalar nəticəsində təlim nailiyyətlərinin və şagird nailiyyətlərinin oxşar cəhətlərini aşağıdakı kimi ifadə etmək olar.

– Hər iki halda məqsəd tədris prosesində əldə olunan nəticələrin dəyərləndirilməsidir.

– Hər iki növ qiymətləndirmədə həm formativ (prosesə yönəlik), həm də summativ (nəticəyə yönəlik) yanaşmalar tətbiq oluna bilər.

– Hər iki qiymətləndirmə növü tədris prosesində nöqsanları aşkarlamaq və inkişaf istiqamətləri müəyyənləşdirmək üçün istifadə olunur.

– Kurikulum əsaslı təlim modelində hər iki qiymətləndirmə növü tədrisin ayrılmaz tərkib hissəsidir.

– Hər ikisi təlim məqsədlərinə çatma səviyyəsini müəyyən etmək üçün aparılır.

Hər iki qiymətləndirmə üzrə fərqli cəhətlər aşağıdakı kimi qruplaşdırılmışdır:

*Məqsəd baxımından,* şagird nailiyyətlərinin qiymətləndirilməsi əsasən şagirdin fərdi inkişafını, bilik və bacarıq səviyyəsini müəyyən etməyə yönəlmişdir. Halbuki təlim nailiyyətlərinin qiymətləndirilməsi ümumilikdə təlim prosesində əldə olunan nəticələrin və təlim məqsədlərinə nə dərəcədə çatıldığının qiymətləndirilməsini hədəfləyir. *Obyekt olaraq,* birincidə ayrı-ayrı şagird və ya şagird qrupları əsas obyekt kimi çıxış edir. İkincidə isə təlimin məzmunu, istifadə olunan metodlar, yaradılan mühit və müəllimin fəaliyyəti qiymətləndirmənin obyektini təşkil edir. *Diqqət mərkəzində,* şagird nailiyyətlərinin qiymətləndirilməsi şagirdin fəaliyyətinin nəticələri və onun fərdi inkişafına yönəlmişdir. Təlim nailiyyətlərinin qiymətləndirilməsində isə əsas diqqət təlim prosesinin effektivliyi və onun nəticəyə təsiri üzərində cəmlənir. *Qiymətləndirməni aparan subyektlər* baxımından fərq ondadır ki, şagird nailiyyətlərinin qiymətləndirilməsində müəllimlə yanaşı valideynlər və şagirdin özü də iştirak edə bilər (məsələn, özünüqiymətləndirmə vasitəsilə). Təlim nailiyyətlərinin qiymətləndirilməsi isə daha çox müəllimlər, məktəb rəhbərliyi və təlim dizaynerləri tərəfindən həyata keçirilir. *Nəticələrin istifadəsi* baxımından, şagird nailiyyətlərinin qiymətləndirilməsi fərdi şagirdə rəy vermək, fərdi tədris planı hazırlamaq və əlavə dəstək tədbirləri görmək məqsədilə istifadə olunur. Təlim nailiyyətlərinin qiymətləndirilməsi isə ümumilikdə tədris proqramlarının təkmilləşdirilməsi və daha uyğun tədris metodlarının seçilməsi üçün əsas verir. *Əhatə dairəsinə gəldikdə isə,* şagird nailiyyətlərinin qiymətləndirilməsi daha konkret və fərdi səviyyədə aparılır. Təlim nailiyyətlərinin qiymətləndirilməsi isə daha geniş miqyaslı olub, təlimin bütün iştirakçılarını əhatə edir.

Mövcud qiymətləndirmə mexanizmlərinin təkmilləşdirilməsi yalnız texniki dəyişikliklərlə deyil, pedaqoji mədəniyyətin transformasiyası ilə mümkündür. Qiymətləndirmənin məqsədi sadəcə qiymət vermək deyil, öyrənməyə yön vermək və inkişafı stimullaşdırmaqdır. Bu baxımdan yanaşmaların modernləşdirilməsi, müəllimlərin dəstəklənməsi və rəqəmsal imkanlardan istifadə prioritet istiqamətlər kimi nəzərdən keçirilməlidir.

## İstifadə olunmuş ədəbiyyat

1. Cavadov, İ. (2024). Ümumi təhsilin keyfiyyətinə təsir edən əsas amillər. Humanitar və Sosial Elmlərin Aktual Problemləri, 7, 290–296. https://doi.org/10.58224/2618-7175-2024-7-290-296.6

2. Cavadov, İ. (2014). Şagird nailiyyətlərinin monitorinqi və qiymətləndirilməsi: Müasir yanaşmalar. Azərbaycan Təhsil Tədqiqatları Jurnalı, 4, 37–41.

3. Mikayılova, K. (2024). Kiçikyaşlı məktəblilərin təlim nailiyyətlərinin qiymətləndirilməsi üzrə işin sistemi [Müəllif xülasəsi]. https://aak.gov.az/upload/dissertasion/pedaqogika/yeni_25_ 06_2024_-_-_K_Mikay%C4%B1lova_-Avtoreferat_2024_(1)_(1).pdf

4. Fischer, C. (2011). *Zur Praxis der Beurteilung von Schülerleistungen im Lichte der Rechtslage*. Friedrich-Alexander-Universität Erlangen-Nürnberg. Fachportal Pädagogik. https://www.fachportal-paedagogik.de/literatur/-vollanzeige.html?FId=3059053

5. Integrating Formative and Summative Assessment. URL: https://www.oecd.org/en/publications/ integrating-formative-and-summative-assessment_5kghx3kbl734-en.html

6. TAO Testing. (2022, April 21). *5 kreative Wege zur Bewertung des Lernerfolgs von Schülern*. https://www.taotesting.com/de/blog/5-creative-ways-to-assess-student-learning

**Конуль Микаилова**
**Новаль Аль-Аббаси**

## Механизмы оценки в азербайджане: сравнительный анализ достижений преподавателей и достижений учащихся

**Аннотация**

На фоне реформ, направленных на повышение качества общего образования в Азербайджане, совершенствование механизмов оценки стало одним из приоритетных направлений образовательной политики. В этом контексте научные и практические дискуссии вокруг понятий «учебные достижения» и «достижения учащихся» показывают, что оценка требует разных по содержанию и целям подходов.

Цель исследования – определить научно-педагогические основы и механизмы оценки учебных достижений и достижений учащихся, предложить и обосновать возможности и методы оценки, технологии их применения.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 9, 2025*
*Səh. 276-284*

Целью исследования является выяснение цели и сущности оценки учебных достижений и достижений учащихся, проведение системного анализа различий между учебными достижениями и достижениями учащихся, а также содействие более эффективному формированию политики оценки в системе образования Азербайджана, прозрачному принятию решений и повышению качества образования.

**Konul Mikayilova**
**Noval Al-Abbasi**

**Assessment mechanısms ın azerbaıjan: a comparatıve analysıs of teachıng achıevements and student achıevements**

**Summary**

Against the backdrop of reforms aimed at improving the quality of general education in Azerbaijan, improving assessment mechanisms has become one of the priority areas of education policy. In this context, scientific and practical discussions around the concepts of "learning achievements" and "student achievements" reveal that assessment requires different approaches in terms of content and purpose.

The purpose of the study is to determine the scientific and pedagogical foundations and mechanisms of assessing learning achievements and student achievements, to propose and substantiate the possibilities and methods of assessment, and the application technologies.

The contribution of the study aims to clarify the purpose and essence of assessing learning achievements and student achievements, conduct a systematic analysis of the differences between learning achievements and student achievements, and contribute to a more effective establishment of assessment policy in the Azerbaijani education system, transparent decision-making, and improving the quality of education.

**Rəyçi: Pedaqogika üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan Respublikasının Təhsil İnstitutunun direktor müavini İlham Cavadov**